# Azərbaycanda muzdla işləyənlərin sayı azalmaqda davam edir: 27 min

36 dəqiqə öncə




Azərbaycanda cəmi 240 min işsiz var?

Azərbaycanda muzdla çalışan işçilərin sayında azalma davam edir. Bu, Dövlət Statistika Komitəsinin (DSK) aylıq hesabatlarının təhlili zamanı üzə çıxıb.

DSK bu gün, sentyabrın 10-da açıqlayıb ki, 2026-cı il avqustun 1-i ölkədə muzdla çalışan işçilərin sayı 1 milyon 781 min 100 nəfər olub. Onlardan 836.9 mini dövlət sektorunda, 944.2 mini isə qeyri-dövlət sektorunda fəaliyyət göstərib.

Ölkədə muzdla işləyənlərin sayı iyulun əvvəlində 1 milyon 787 min 400, ilin əvvəlində isə 1 milyon 808 min təqdim edilmişdi.

Aylıq hesabatların təhlili göstərir ki, **bu ilin yeddi ayında ölkədə rəsmi işçilərin sayı 27 minə yaxın azalıb.** Amma azalma dövlət sektorunda daha çoxdur, 29 minə yaxın. Qeyri dövlət sektorunda 2 min civarında artım var.

## Xatırlatma

Son illər Azərbaycanda bir sıra dövlət qurumları ya ləğv edilir, yaxud da bir-birləri ilə birləşdirilir. Rəsmilər bu addımları idarəetmənin təkmilləşdirilməsi və xərclərin optimallaşdırılması ilə izah edir. Amma müstəqil iqtisadçılar da hesab edir ki, hökumət neft hasilatı azaldıqca, xərcləri azaltmaq siyasəti yeridir. Son illər Azərbaycan Dövlət Neft Şirkətinin ( SOCAR) özünün də işçiləri azalıb.

Amma hökumət deyir ki, ölkədə məşğul əhali 5 milyondan çoxdur. Son illər rəsmilər, bir qayda olaraq, "iqtisadiyyatın ağardılması"ndan danışsa da, muzdla işçilərin sayında bu özünü göstərmir.

AzadlıqRadiosu © 2026 Inc. | Bütün hüquqlar qorunur